# Özbəkistanda beynəlxalq muğam forumu



**UNESCO və İSESCO-nun himayəsi altında Özbəkistanın Cizzax vilayətinin Zamin şəhərindəki “Zaminsoy” kompleksində muğam üzrə II Beynəlxalq forumun açılışı olub. Dörd gün çəkəcək musiqi bayramına dünyanın 80-dən artıq ölkəsindən gələn 400-dən çox nümayəndə qatılıb.**

Açılış mərasiminə TÜRKSOY-un Baş katibi Sultan Rayev, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Aktota Raimkulova, TÜRKPA-nın Baş katibi Mehmet Surayya Er, UNESCO Baş Konfransının prezidenti xanım Simona Mikulesku, ICESCO-nun baş direktoru Səlim əl-Malik, Türkiyə Prezidentinin baş məsləhətçisi Yalçın Topçu, Qazaxıstan Prezidentinin müşaviri Malik Otarbayev, Qırğızıstanın mədəniyyət, informasiya, idman və gənclər siyasəti naziri Altınbek Maqsutov, Azərbaycanın mədəniyyət naziri Adil Kərimli, Özbəkistanda fəaliyyət göstərən səfirlər, beynəlxalq təşkilatların nümayəndələri, Özbəkistanın elm, mədəniyyət və incəsənət xadimləri, ictimaiyyətin nümayəndələri, jurnalistlər qatılıb.

Azərbaycan nümayəndə heyətinin tərkibində Milli Konservatoriyanın rektoru, Xalq artisti, professor Səyavuş Kərimi, prorektor, professor Lalə Hüseynova, Xalq artistləri Alim Qasımov, Mənsum İbrahimov, Əməkdar artist, Beynəlxalq Muğam Mərkəzinin direktoru Sahib Paşazadə, alimlər, gənc ifaçılar var.

Kompleksin ərazisində Özbəkistanın 14 regionunun adət-ənənələrini, həyat tərzini əks etdirən etnoqrafik şəhərcik-pavilyonlar, yerli mədəniyyət və incəsənət nümunələri nümayiş etdirilib.

Musiqi bayramını Özbəkistan Prezidenti Şavkat Mirziyoyev açaraq bu münasibətlə tədbir iştirakçılarını təbrik edib, muğam sənətinin ölkənin simvolu olduğunu, özbək xalqının mənəvi həyatında mühüm yer tutduğunu bildirib. Dövlət başçısı deyib ki, müsəlman Şərqində Fərabi, Biruni, İbn Sina, Əlişir Nəvai, Babur və digər dahi şəxsiyyətlər muğamın inkişafına böyük töhfələr verib. XX əsrdə Özbəkistanda bu ənənəni Abdurauf Fitrət, Yunus Rəcəbi, muğam ifaçıları–Kamiljon Ataniyazov, Turqun Alimatov, Fəttahxan Mamadaliyev və digərləri davam etdirib.

Şavkat Mirziyoyev təkrarsız muğam sənətinin UNESCO-nun bəşəriyyətin Qeyri-Maddi Mədəni İrs siyahısına daxil edilməsinin təsadüfi olmadığını vurğulayıb.

UNESCO Baş Konfransının prezidenti, xanım Simona Mikulesku, ICESCO-nun baş direktoru Səlim əl-Malik öz çıxışlarında Şərq dünyasında muğam sənətinin əhəmiyyəti haqqında söhbət açıblar.

Sonra klassik mahnı və rəqslərdən ibarət böyük konsert proqramı təqdim olunub.

Forum çərçivəsində muğam sənəti ilə bağlı beynəlxalq elmi-nəzəri konfrans, dəyirmi masalar keçiriləcək. Festivalda “Ən yaxşı muğam ansamblı”, “Ən yaxşı instrumental solo ifaçısı”, “Ən yaxşı vokal ifaçısı” nominasiyası üzrə qaliblər müəyyən ediləcək. Festivalın Beynəlxalq nümayəndə heyətinin tərkibində Azərbaycan, Amerika Birləşmiş Ştatları, Türkiyə, Hindistan, Misir və Özbəkistan nümayəndələri təmsil olunub.

Musiqi bayramı iyunun 30-dək davam edəcək.

***Qulu KƏNGƏRLİ,***
***XQ-nin xüsusi müxbiri***
**Özbəkistan**

Xalq qəzeti .- 2024.- 29 iyun, № 133.- S.10.